# Bura Masallıdır, nağıl misallıdır

***❐ Ölkəmizin turizm marşrutlarının əsas dayanacaqlarından biri də Masallıdır. Təbii gözəllikləri, insan əlinin qüdrətilə yaradılmış infrastrukturu bu diyarın başlıca özəlliyi sayılır. Ötən ilin sentyabrında Masallıya səfər edən Azərbaycan Prezidenti cənab İlham Əliyev görülən işləri təqdir edərək rayonun su və qaz təchizatı, yol çəkilişi, aqrar sahənin genişləndilməsi, mədəni həyatın canlandırılması yönümündə atılan addımlardan razılığını bildirmişdir.***




Dövlətimizin başçısı rayon ictimaiyyəti ilə görüşündə Masallıda Azərbaycanda sayca ikinci olan sənaye zonasının yaradıldığını, digər mühüm layihələrin reallaşdırıldığını qeyd etmişdir: "Mən bu zonaların yaradılması ilə bağlı artıq bir müddət əvvəl göstəriş vermişəm. Birinci zona Neftçalada yaradılır. Demək olar ki, hazırdır. İkinci sənaye zonası Masallıda. Bu, nə deməkdir? Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Masallıda əhali artır. Burada 220 min əhali yaşayır. Əlbəttə ki, bizim iqtisadi inkişafımız əhalinin artımına uyğun olmalıdır. Bizim regionumuzda bəzi ölkələr var ki, orada əhali azalır. Əlbəttə, bunun müxtəlif səbəbləri var. Ancaq Azərbaycanda xoşbəxtlikdən əhali artır və bunun səbəbi bizim uğurlu iqtisadi inkişafımızdır... Təkcə bu mərkəzdə 250 yeni iş yeri açılır. "ASAN xidmət" işçilərinin mütləq əksəriyyəti gənc oğlanlar və qızlardır. Buna da çox sevinirəm. Çünki gənclər, xüsusilə qadınlar işlə daha çox təmin edilməlidir. Onların hamısı yerli sakinlərdir. Mən çox şadam ki, biz Masallıda bu işləri görmüşük və qısa müddət ərzində bu mərkəzin yaradılmasına nail ola bilmişik."

Aprelin əvvəllərində Masallı şəhərinin 2035-ci ilə qədər dövrünü əhatə edən baş planının hazırlanması ilə bağlı keçirilən ictimai müzakirələrə qatılan hər kəsin qəlbi doğma yurdun tərəqqisindən doğan qürur hissi ilə döyünürdü. Orada qeyd olundu ki, şəhərin baş planın hazırlanması üzrə üç ildən bəri aparılan işlər başa çatmaq üzrədir. Qarşıdakı illərdə Masallı sürətlə inkişaf edəcək, tanınmaz dərəcədə dəyişəcək.

Rayon icra hakimiyyətinin təşəbbüsü və sifarişi ilə hazırlanan baş planın ilkin müzakirəsində icra başçısı Rafil Hüseynov bu barədə geniş danışdı. O dedi ki, illərlə belə plan hazırlansa da, şəhərin inkişafı, xüsusilə sakinlərin artım tempi ilə uzlaşdırılmayıb. Əvvəllər Masallı şəhəri məhəllələrə bölündüyündən 220 min əhalisi olan rayonun mərkəzi cəmi 8 min 800 nəfərdən, 16 küçədən ibarət olub. Cənab İlham Əliyevin sərəncamı və Milli Məclisin qərarı ilə bəzi yaşayış massivləri Masallı şəhərinə qatılmaqla sahəsi 2400 hektara çatdırıldı. Baş planda şəhərin zonalaşdırılması üzrə nəzərdə tutulan tədbirlərdən bəhs edən natiq bunun mahiyyətini açıqladı. Şəhərdə administrativ mərkəz, mədəniyyət və istirahət, idman mərkəzləri, sənaye məhəlləsi, Dadva, Ərkivan, Seybətin, Kosakül və Digah istiqamətlərində genişlənmə, salınacaq obyektlər barədə geniş məlumat verdi və bildirdi ki, bu, Masallının qarşıdakı illər üçün bir proqramıdır.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi Fəxri Aydəmirin, layihəçi təşkilat - "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutunun layihəçisi Sevda Süleymanovanın çıxışları maraqla



dinlənildi. Onlar məlumat verdilər ki, baş planda ictimai mərkəzlərin, yeni yaşayış ərazilərinin, çayqırağı rekreasiya və sənaye zonalarının yerləri müfəssəl qaydada işlənib hazırlanıb. Eyni zamanda baş plan layihəsində şəhərin mərkəzindən keçən çayın üzərində iki yeni körpünün salınması nəzərdə tutulur. Sənəddə bütün amillər: əhali artımından tutmuş yeni salınacaq, böyüdüləcək küçələr, iqlim şəraiti nəzərə alınıb, geniş, hərtərəfli təhlildən sonra reallaşdırılıb. Şəhər ictimaiyyətinin nümayəndələri də bu gözəl arzu layihəsi – hünər planı ilə bağlı ürək sözlərini söylədilər...

İşgüzar və nikbin ruhda keçən tədbirin iştirakçılarından biri – şəhər Ağsaqqallar Şurasının sədri, Əməkdar müəllim Mirqabil Hüseynovun dedikləri:

– Müzakirələrdə layihə təqdir olundu və şəhərin inkişaf perspektivləri nəzərə alınaraq, bir sıra təkliflər irəli sürüldü. Mən də çıxış etdim. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin regionlara qayğısından ürəkdolusu danışdım. Masallı şəhərinin 2035-ci ilə qədər dövrünü əhatə edən baş planını, son bir neçə ildə şəhərsalma istiqamətində görülən çoxsaylı tədbirləri həmin qayğının nəticəsi kimi dəyərləndirdim və sakinlər adından dövlətimizin başçısına dərin minnətdarlıq ifadə elədim. Sözün əsl mənasında fərəhli haldır ki, Masallı durmadan inkişaf edir, burada həyat gözəlləşir.

Bəli, Masallının artan gözəllikləri hər addımda görünür. Elə ilin ilk rübünün yekunlarına həsr olunan yığıncaqda da bu barədə ətraflı məlumat verilib, yaxın perspektiv üçün planlar müəyyənləşdirilib. Cənab İlham Əliyevin Masallıya sayca doqquzuncu səfərinin xoş təəssüratlarından bəhs olunub. Xatırladaq ki, Azərbaycan Prezidenti səfər zamanı burada Bayraq Meydanı və Azərbaycan Dövlət Rəmzləri Muzeyinin, "ASAN həyat" kompleksinin, Uşaq-incəsənət



məktəbinin, Masallı Tarix-Diyarşünaslıq Muzeyinin, həmçinin şəhərin içməli su təchizatı layihəsinin açılış mərasimlərində iştirak edib, yeni obyektlərin işə salınmasına xeyir-dua verib.

Sözügedən obyektlərdən biri – şəhərin cənub girişində, Heydər Əliyev prospektində yerləşən Masallı regional "ASAN həyat" kompleksi böyük bir sahəni əhatə edir və yaraşığı ilə göz oxşayır. Burada olarkən adam özünü əyalət şəhərində deyil, paytaxt Bakıdakı kimi hiss edir. Zövq, keyfiyyət, müasirlik heyranlıq yaradır. Möhtəşəmliyi ilə seçilən şəhərciyin tikintisi yüksək səviyyədə həyata keçirilib. Bu kompleks 4 mərtəbəli inzibati binadan və ictimai iaşə obyektləri üçün nəzərdə tutulan daha bir neçə binadan ibarətdir. Kompleksin 4480 kvadratmetr ərazisində "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Mərkəzdə 10 dövlət orqanı - Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım, tərcümə xidmətləri təşkil edilib. Bu mərkəz Masallı rayonu da daxil olmaqla Cəlilabad, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarının əhalisinə, ümumilikdə 800 mindən çox vətəndaşa xidmət göstərir. Burada 170 nəfər işlə təmin olunub, 80 könüllü çalışır. Ətrafın yaşıllılığı, səliqə-sahmanı diqqət çəkir.

Masallıda tikinti-quruculuq, abadlıq işləri durmadan davam edir. Mərkəzi prospektdə uzunluğu 1000 metrə yaxın olan suötürücü kanalın çəkilişinə başlanıb və 120 metr məsafədə betonlama işləri sona çatdırılıb. Nəqliyyat vasitələrinin



təhlükəsiz hərəkət etməsi məqsədilə bir neçə prospekt və küçədə işıqforlar quraşdırılıb. Şəhərin mərkəzindən keçən Viləş çayının ətrafındakı Park-Bulvar kompleksində çay yatağının beton məcraya salınması işləri davam edir. Burada müxtəlif istirahət mərkəzlərinin, idman meydançalarının və uşaq əyləncə qurğularının yaradılması planlaşdırılır. Masallı şəhəri ərazisində sosial təşəbbüslə 100 yerlik uşaq bağçası tikilərək istifadəyə verilib. Hazırda şəhər ərazisində yerləşən "Cümə" məscidində əsaslı təmir işləri həyata keçirilir. Ötən il inşasına başlanan və gələn il təhvil verilməsi nəzərdə tutulan Masallı Rayon Məhkəməsinin yeni inzibati binasında işlər davam edir. Səhiyyə xidməti sahəsi də müasirləşdirilir. Rayon Mərkəzi Xəstəxanası əsaslı təmir olunaraq istifadəyə hazır vəziyyətə gətirilib. Lürən və Məmmədobada tibb məntəqələri tikilir. Eyni zamanda Heydər Əliyev prospektində "Yaşıl Market" Logistik Mərkəzinin yaradılması üçün 10 hektar sahə ayrılıb.

Xatırladaq ki, rayona səfərindən dərhal sonra – sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Masallı şəhərində 27 çoxmənzilli binanın təmir edilməsindən ötrü 3 milyon manat vəsait ayrılmışdır. Ötən əsrin 70-80-ci illərində inşa edilmiş 27 kommunal yaşayış binasının fasad və dam örtüklərində əsaslı təmir işləri artıq başa çatıb. Ümumilikdə, həmin binalardakı 84 giriş blokunda smeta sənədləri üzrə nəzərdə tutulan bütün işlər yekunlaşıb. İndi zirzəmilərin təmiri və kanalizasiya xətlərinin yeni sistemə qoşulması işləri gedir. 5,5 hektar ərazidə yerləşən yaşayış binalarının qarşısındakı yollara səki daşları düzülüb və asfalt vurulacaq hissələrə hazırlıq qatı vurulub. Eyni zamanda, binaların qarşısında müasir işıqlandırılma sistemlərinin quraşdırılmasına hazırlıq görülür. Bu həyətlərdə geniş yaşıllıq zolaqları salındığından ərazilərə 380 maşın torpaq daşınıb. Bundan əlavə, daha 18 binanın dam örtüyünün və 5 binanın fasadının əsaslı təmirinə də başlanıb. Artıq həmin binalardan 10-unun dam örtüyü və 5 binanın fasadı keyfiyyətlə təmir edilib. Beləliklə də, Masallıda mövcud olan 77 çoxmənzilli binanın tam təmiri başa çatdırılacaq.

Masallının iqtisadi göstəriciləri də ürəkaçandır. İlin ilk rübü ərzində sənaye məhsullarının həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 16,9 faiz artaraq 1,6 milyon manata, kənd təsərrüfatı məhsullarının həcmi 5,1 faiz artaraq 0,8 milyon manata çatıb. Adambaşına düşən pul gəlirləri 562,1 manat, bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 298,8 manat olub. Ümumilikdə, müvəqqəti iş yerləri də daxil olmaqla 672 nəfər işlə təmin olunub.

İlin əvvəlindən rayonda süd istehsalı 12216 tona, ət istehsalı 1540,8 tona, yumurta istehsalı 19480 min ədədə çatıb ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. İribuynuzlu mal-qaranın sayı 72330 baş, davarların sayı 87051 başdır. Taxıl, yaşıl çay, bostan bitkiləri, meyvə-tərəvəz, çəltik, fındıq və tütün əkini sahələri genişlənib. Baramaçılığın inkişafına start verilib. Artıq rayonun doqquz ərazisində 4100 ədəd tut ağacından ibarət 23,1 hektarlıq bağlar mövcuddur. Kolatan kəndi ərazisində "Azərsun Holding" şirkəti tərəfindən 100 hektar sahə çay əkini aparılması üçün hazır vəziyyətə gətirilib və 50 hektar sahə artıq əkilib. Qızılağac kəndində isə həmin şirkət üçün tərəvəz yetişdirməkdən ötrü 150 hektar sahə ayrılıb və 100 faiz əkin aparılıb. Zaman Viləşçay su anbarının ikinci növbəsinin tikintisini də zərurətə çevirib və bu yöndə addımlar atılır. Həmin layihədən qonşu Cəlilabad və Neftçala rayonları da faydalana biləcək.

Azərbaycan Prezidentinin "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin yaradılması haqqında 11 aprel 2016-cı il tarixli sərəncamının icrası məqsədilə Masallıda da regional tədarük mərkəzi yaradılıb. Hazırda rayonda fəaliyyət göstərən 300-ə yaxın fermer istehsal etdiyi məhsullar barədə tədarük mərkəzinə müvafiq məlumatlar verib. Masallı sahibkarları Bakı şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarına üç ayda 8,8 ton kartof, 7,7 ton soğan, 810 kiloqram noxud və xeyli miqdarda digər ekoloji təmiz məhsul göndəriblər.

Turizm Masallı rayonunun əsas inkişaf istiqamətlərindəndir. Rayonda fəaliyyət göstərən 33 turizm obyekti ilin əvvəlindən 4200 nəfər turist qəbul edib ki, bunun da 510 nəfəri xarici vətəndaşlar olub.

Rayonda müalicəvi turizm şəhərciyinin, yeni turizm istirahət kompleksinin də salınması nəzərdə tutulur. Kompleksin Qəriblər kəndinin cənub hissəsində, Masallı-Yardımlı yolunun kənarında yerləşən 10 hektar sahədə tikilməsi mütəxəssislər tərəfindən məqsədəuyğun sayılıb.

İlbəil, aybaay gözəlləşən və ölkənin əsas turizm mərkəzlərindən birinə çevrilən Masallıya gəlməyə, bu diyarı gəzib dolaşmağa dəyər.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***